Azərbaycan Respublikası
Vəkillər Kollegiyasının
Sədri cənab Anar Bağırova

Naxçıvan MR, Naxçıvan şəh,
Əcəmi, ev 39, m 20 də yaşayan
Həsənova Çimnaz Hüseyn qızı
tərəfindən

# M Ü R A C İ Ə T:

Hörmətli Anar məllim,

Ilk öncə deyim ki, Sizə yazan doğranmış, ayrı-ayrı hissələrə ayrılmış, sonra dərisi soyularaq zibilliyə atılmış, vəhşicəsinə və xüsusi amansızlıqla qətlə yetirilmiş 34 yaşlı Məhərrəmova Banu Xudayar qızının Anasıdır.

Məlumat üçün bildirim ki, 27 yanvar 2021-ci il tarixdə gecə saatlarında Nəsimi rayon ərazisində zibil tullantıları üçün nəzərdə tutulmuş 5 ədəd zibil qutularından naməlum qadın meyidinin doğranmış bədən hissələri tapılmışdır. Nəsimi Rayon Prokurorluğu tərəfindən, dərhəl, aşkar edilmiş fakt üzrə cinayət işi başlanmış və doğranmış qadının mənim qızım Məhərrəmova Banu Xudayar qızının olduğu müəyyən edilmişdir. İlkin məlumata əsasən, bu cinayəti və vəhşiliyi törədən qızımın qaynatasıdır (lakin, bu tək adamın törədə biləcəyi cinayət olmadığından) Nəsimi Rayon Prokurorluğu tərəfindən istintaq və əmaliyyat qrupu yaradılmış, sözügedən cinayət işinin istintaqı aparılmaqdadır. Hərkəsi şoka salan bu xəbər mənə yuxu kimi gəlir. Biz, Ümumilli lider Heydər Əliyevin bizə bağışladığı Naxçıvan şəhəri Əcəmi, ev 39, m.20 ünvanında yerləşən mənzildə yaşayırıq. Elə qızımın qətlə yetirilməsi xəbərini elə orda aldım. Düşünə bilirsiz mən bu xəbəri alanda hansı vəziyyətə düşdüm. Şübhəsiz ki, mən cənazəmi qəbul edib, yas tədbirlərini bitirdikdən sonra şəhərə gəlməli idim, lakin, yuxudaydım sanki. Mənə bir zəng gəldi. Danışan bir xanım idi. Öncəliklə baş sağlığı verib, dərdimə şərik olduğunu bildirdi.

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 501
«05» 03 2021 il

Sonra özünü təqdim etdi. Mənimlə danışan Gülnar Nəzərli adlı Vəkil xanım idi. Onun sözlərini nə qədər ki, canımda can var unutmayacam. Elə bu məktubu da bu səbəbdən yazmaq qərarına gəldim. Gülnar Nəzərli mənə bundan sonra qızım olacağını dedi, Sizə bu ölkənin Qadın səsi olaraq, Ana səsi olaraq, Vəkil səsi olaraq zəng etmişəm dedi. Hər məsələdə tam olaraq təmənnasız hətta, öz vəsaiti hesabına yanımda olacağını bildirdi. Mən şəhərə gəldikdən sonra biz görüşdük, biz yoldaşımla ona Vəkilimiz olsun deyə bütün səlahiyyətləri verdik. Hal-hazırda bütün istintaq hərəkətlərində yanımızdadır. Vəkil kimi savadı bir ayrı, insaniyyətliyinə valeh olmuşuq. Gülnar xanım ilk səsimə və fəryadıma səs verdi. Onunla danışmayanadək düşünürdüm ki, Vəkillər sərbəst fəaliyyət göstərir, lakin, Gülnar xanım izah etdi ki, bütün Vəkillər "Vəkillər Kollegiyası" adlı böyük bir -Ailədir . Bu böyük ailəni ailə edən, gənc vəkillərə dəstək dayanan, məhz Anar Bağırovdur. Vəkillər Kollegiyasının sədridir, əslində, bütün Vəkillərin dəstəkçisidir. Mən də məhz bu səbəbdən bu məktubla öz təşəkkürümü Sizə bildirmək istədim. Həm Vəkilimiz Gülnar Nəzərliyə, həm də Sizə! Çünki, səsimə ilk laqeyd qalmayıb səs verən, Ana kimi fəryadımı duyan, hissələrə doğranmış və dərisi soyulmuş 34 yaşlı Banumun hüquqlarının müdafiəsinə qalxan məhz Sizin qurumun Vəkili oldu! Həmçinin, Banunun 2 yetim qalmış körpəsinin hüquqları ilə bağlı bütün dəstəklərini əsir gəlinmədiyi üçün ayrı cox sağolun.

Sözügedən vəhşilik ictimayyətdə və sosial şəbəkələrdə, həmçinin ölkənin bütün xəbər portallarında yayıldı və hələ də insanları dəhşətə gətirməkdədir. Hərkəs istintaqın nəticəsini gözləyir. Bu analoqu olmayan törədilmiş cinayət ölkə rəhbərimiz cənab Prezindentin və Baş Prokurorun şəxsi nəzarətindədir. Artıq onlar şəxsən bizimlə maraqlanır, istintaqın bütün gedişatının təminatçısıdırlar.

Buna görə də düşünürəm ki, haqq-ədalət öz yerini tapacaq İnsallah!!!

Hörmətlə, qətlə yetirilmiş Məhərrəmova Banu Xudayar qızının Anası!

Həsənova Çimnaz Hüseyn qızı ________________ 01.03. 2021-ci il Bakı şəhəri